**A Z Ə R B A Y C A N   R E S P U B L İ K A S I**
**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**
**S Ə R Ə N C A M I N D A N   Ç I X A R I Ş**

**№ 41** **«12» May 2026-ci il**

**Ehtiyata və ya istefaya buraxılmış hərbi qulluqçuların mənzil sahəsinə ehtiyacı olan qismində uçota alınmalarını və onlara müvəqqəti mənzil kirayəsi xərclərinin ödənilməsini təmin etmək məqsədilə Binəqədi Rayon İcra Hakimiyyəti başçısı yanında yaradılmış Komissiyanın yeni tərkibinin təsdiq edilməsi haqqında**

"Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası qanununun və Azərbaycan Respublikasının Mənzil Məcəlləsinin tələblərinə əsasən ehtiyata və ya istefaya buraxılmış hərbi qulluqçuların mənzil sahəsinə ehtiyacı olan qismində uçota alınmalarını və onlara müvəqqəti mənzil kirayəsi xərclərinin ödənilməsini təmin etmək məqsədilə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 32 saylı 04.03.2020-ci il tarixli Sərəncamı ilə Komissiya yaradılmışdır.

"Yerli İcra Hakimiyyətləri haqqında Əsasnamə"nin 3.9.6-cı və 6.8-ci maddələrini rəhbər tutaraq

**Qərara alıram:**

1. Binəqədi Rayon İcra Hakimiyyəti başçısı yanında ehtiyata və ya istefaya buraxılmış hərbi qulluqçuların mənzil sahəsinə ehtiyacı olan qismində uçota alınmalarını və onlara müvəqqəti mənzil kirayəsi xərclərinin ödənilməsini təmin etmək məqsədilə Binəqədi Rayon İcra Hakimiyyəti başçısı yanında yaradılmış Komissiyanın yeni tərkibi təsdiq olunsun:

**Komissiyanın sədri:**

Hacıbaba Babayev - RİH başçısının birinci müavini

**Komissiyanın üzvləri:**

Sabir Əliyev - Sənəd dövriyyəsi, vətəndaş müraciətləri və inzibati işlər şöbəsinin müdiri

Səməndər Mənəfov - Müharibə iştirakçıları və şəhid ailələri ilə işin təşkili sektorunun müdiri

Vüsalə Eyvazova - Hüquq və kadr məsələləri sektorunun müdiri

Füzuli Mehrabzadə - Müharibə iştirakçıları və şəhid ailələri ilə işin təşkili sektorunun böyük məsləhətçisi

2. Sərəncamın surəti məlumat üçün İnzibati işlər sektorunun müdiri Hicran Dadaşovaya təqdim olunsun.

**Elxan Allahverdiyev**

***ƏSLİ İLƏ DÜZDÜR:***

**Sənəd dövriyyəsi, vətəndaş müraciətləri və inzibati işlər şöbəsinin müdiri** **Sabir Əliyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti

SƏNƏDLƏR ÜÇÜN